# AZƏRBAYCANDA İFADƏ AZADLIĞININ VƏZİYYƏTİNƏ (2021) DAİR ARAŞDIRMA SƏNƏDİ



2022

DEMOKRATİK TƏŞƏBBÜSLƏR İNSTİTUTU

IDI

INSTITUTE FOR DEMOCRATIC INITIATIVES

# AZƏRBAYCANDA
# İFADƏ AZADLIĞININ VƏZİYYƏTİNƏ (2021)
# DAİR ARAŞDIRMA SƏNƏDİ

**MÜƏLLİF: JALƏ RƏHMAN**

**EKSPERT: ƏLƏSGƏR MƏMMƏDLİ**

## Mündəricat

1. XÜLASƏ ........ 4
2. GİRİŞ ........ 6
3. METODOLOGİYA ........ 6
4. QANUNVERİCİLİK ........ 7
   Beynəlxaq qanunvericilik ........ 7
   Yerli qanunvericilik ........ 9
5. PRAKTİK VƏZİYYƏT ........ 15
*6.* AİHM ........ 19
7. AİHM-İN QƏRARLARININ İCRA VƏZİYYƏTİ ........ 23
8. NƏTİCƏ ........ 29
9. TÖVSİYƏLƏR ........ 30

# 1. XÜLASƏ

Avropa Şurasına üzv dövlətlər Avropa İnsan Haqları Məhkəməsinin (AİHM) qərarlarını tam icra etməlidirlər. Belə ki, üzv ölkələr Avropa İnsan Hüquqları Konvensiyasına (Konvensiya və ya AİHK) qoşulmaları ilə AİHM-in qərarlarına əməl etmək öhdəliyini götürmüş olublar. Bu öhdəlik Konvensiyanın 46-cı maddəsində öz əksini tapmışdır. Azərbaycan Respublikasının (AR) Konstitusiyası ilə təminat altına alınan insan və vətəndaş hüquqları və azadlıqları AR-nın ratifikasiya etdiyi beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. Konstitusiyanın 148-ci maddəsinə əsasən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr AR-nın qanunvericilik sisteminin əsas tərkib hissəsidir. Konstitusiyanın 151-ci maddəsində qeyd olunur ki, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Konstitusiya və referendumla qəbul edilən aktlar istisna olmaqla) AR-ının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

AİHM Azərbaycana qarşı ifadə azadlığı pozuntusu ilə bağlı indiyə qədər 16 qərar qəbul edib. Məhkəmə Azərbaycanda ifadə azadlığı hüququnun pozuntusunu ilk dəfə, 2008-ci ilin dekabrında, Mahmudov və Ağazadə Azərbaycana qarşı şikayəti üzrə qərarında tanıyıb.

İfadə azadlığı hüququnun pozuntusuna məruz qalanların əksəriyyəti jurnalistlərdir. Aərbaycandan göndərilmiş şikayətlər üzrə ilk dəfə informasiya əldə edilməsi hüququnun məhdudlaşdırılması ilə ifadə azadlığı hüququnun pozuntusuna dair qərar isə Rövşən Hacıbəyli Azərbaycana qarşı işidir.

Hesabatın məqsədi Azərbaycanda ifadə azadlığının vəziyyətini təsvir etmək, beynəlxalq konvensiyaların ifadə azadlığına yanaşmasını əks etdirmək, yerli qanunvericiliyi təsvir və təhlil etmək, 2021-ci ildə ifadə azadlığına edilən müdaxilələrin xarakterini göstərmək, AİHM tərəfindən qəbul olunan qərarların icra vəziyyətini araşdırmaq, araşdırma nəticələrini təhlil etmək və sonda tövsiyələr verməkdir.

Hesabatın beynəlxaq qanunvericilik hissəsində ratifikasiya olunmuş sənədlərin ifadə azadlığına yanaşması və eləcə də müəyyən etdiyi məhdudiyyətlər təsvir edilib, yerli qanunvericiliyin analiz hissəsində isə Azərbaycan Respublikasının Konstitusiyasına, İnzibati Xətalar Məcəlləsinə, Cinayət Məcəlləsinə, eləcə də "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanuna nəzər salınıb.

AR-nın Konsitutsiyasının 47 və 50-ci maddələri ifadə azadlığı hüququnu qoruyur. Beynəlxalq sənədlərdə ifadə azadlığına qoyulan məhdudiyyətlər kifayət qədər dar çərçivəlidir və bu hüquqa ediləcək müdaxilələrin demokratik cəmiyyətdə zəruri olması tələb edilir.

Qanunvericilikdə ən böyük problemlərdən biri diffamasiyaya görə cinayət məsuliyyətinin hələ də qallmasıdır. Azərbaycana qarşı Konvensiyanın 10-cu maddəsinin pozuntusu tanınan işlərdə də bu problem təkrar-təkrar vurğulanıb. Cinayət Məcəlləsində diffamasiyaya görə bir neçə maddə cinayət məsuliyyəti yaradır. Bunlardan biri də prezidentin şərəf və ləyaqətini qoruyan maddədir. Bu maddə AİHM-in qərarlarında dəfələrlə qeyd olunan dövlət nümayəndələrinin, ictimai və siyasi xadimlərin, o cümlədən rəhbər şəxslərin tənqidə qarşı daha tolerant olmalı prinsipinə ziddir.

AİHM-in Azərbaycana qarşı bir çox işdə əsas pozuntu tapdığı məqamlardan biri cəzaların mütənasibliyidir. Belə ki, həmin qərarlarda yerli məhkəmələrin ən ağır sanksiyaları seçdiyi, xüsusilə də diffamasiya işlərində mövzunun ictimai debata tövhə verməsi və şəxsin ictimai həyatdakı rolu faktorlarını nəzərə almadığı bildirilib.

Praktik hissəyə nəzər saldıqda görəcəyik ki, bəzi şəxslər Cinayət Məcəlləsinin 147 və 148-ci maddələrinə əsasən cinayət məsuliyyətinə cəlb edilib. Bu da onu göstərir ki, Azərbaycanda diffamasiyaya görə cinayət məsuliyyəti geniş tətbiq edilir.

Hesabatda yekunda tövsiyələrə yer verilib. Tövsiyələrdə diffamasiyanın dekriminallaşdırılmaı, Cinayət Məcəlləsinin böhtan və təhqirə görə məsuliyyət nəzərdə tutan 147 və 148-ci, 148-1-ci maddələrinin ya ləğv edilməsi ya da həmin maddələrin azadlqıdan məhrum etmə cəzası müəyyən edən hissələrinin dəyişdirilməsi, jurnalistlərin azadlqıdan məhrum edilməsi ilə nəticələnmiş cinayət işlərinin yenidən araşdırılması, əsassız həbs edilmiş jurnalistlərin azadlığa buraxılması, AİHM-in qəbul etdiyi qərarların icra olunması, sosial media istifadəçilərinə qarşı təqiblərin dayandırılması, vətəndaşların ifadə azadlığının müdafiəsi ilə bağlı Strasburq Məhkəməsinin qərarlarından irəli gələn müddəaların icra edilməsi əksini tapıb.

# 2. GİRİŞ

İfadə azadlığı demokratik cəmiyyətin mühüm dayaqlarından, onun tərəqqisi və hər bir fərdin inkişafı üçün əsas şərtlərdən birini təşkil edir. AİHM-in 2021-ci ildə elan etdiyi qərarlarına görə, ifadə azadlığı hüququnu ən çox pozan 3 ölkə Türkiyə, Rusiya və Azərbaycandır. Müxtəlif illərdə hazırlanan hesabatlar və araşdırma sənədləri göstərir ki, Azərbaycanda ifadə azadlığına yönəlik sistemli şəkildə müəyyən müdaxilələr baş verir.

Hesabatı hazırlamaqda məqsəd ifadə azadlığının çərçivələrini aydın göstərmək, Azərbaycan Respublikasında 2021-ci il ərzində ifadə azadlığına qanunsuz, legitim olmayan müdaxilə faktlarını toplamaq, onları təsvir etmək və AİHM qərarlarının icra vəziyyətini qiymətləndirməkdir.

AİHM 2021-ci ildə ümumilikdə 85 işdə ifadə azadlığı hüququnun pozuntusuna qərar verib. Həmin qərarlardan 31-i Türkiyəyə qarşı çıxarılıb. 19 qərarda isə Rusiyada ifadə azadlığı hüququna müdaxilənin baş verdiyi təsbit olunub. Sıralamada 3-cü olan Azərbaycana qarşı çıxarılan 6 qərarda ifadə azadlığı hüququnun pozuntusu tanınıb.

# 3. METODOLOGİYA

Hesabatın qanunvericilik hissəsində ilk öncə beynəlxaq sənədlərdə bu hüquqa verilən zəmanət və məhdudiyyətlərə yer verilib. İkinci hissədə isə yerli qanunvericilikdə ifadə azadlığının zəmanət və məhdudiyyətləri təsvir edilib. Bundan əlavə ifadə azadlığı çərçivəsində qanunla tətbiq olun inzibati məsuliyyət, cinayət məsuliyyəti və s. araşdırılıb və təsvir edilib. Sənədin statistika hissəsində isə ölkə ərazisində 2021-ci il ərzində ifadə azadlığına müdaxilələr (polis bölməsinə çağırılan, inzibati və ya cinayət məsuliyyətinə cəlb olunan və s.) haqqında məlumat verilib. Araşdırma sənədini hazırlayarkən media monitorinqi metodundan istifadə olunub. Məlumatlar müxtəlif yerli və beynəlxalq hesabatlardan, eləcə də bir sıra media vasitəsilərindən əldə edilib. Media monitorinqi açar sözlər vasitəsilə aparılıb və araşdırmanı əhatə edən konkret dövrlə (2021-ci ilin yanvar – dekabr ayları) məhdudlaşdırılıb. Araşdırma zamanı istifadə olunan açar sözlər bunlardır: “Polisə çağırıldı”, “inzibati həbs”, “həbs olundu”, “saxlanıldı", “xəbərdarlıq olundu” və s. Məlumatların toplanılması zamanı “Meydan TV”, “Azadlıq Radiosu”, “Amerikanın Səsi” (VOA), “Toplum TV” və s. kimi xəbər saytlarından istifadə olunub.

# 4. QANUNVERİCİLİK

## Beynəlxaq qanunvericilik

Azərbaycan Respublikası ölkədə insan hüquq və azadlıqlarının təmin edilməsi və inkişafı üçün bir sıra beynəlxalq sənədləri ratifikasitaya etmişdir. Demokratiyanın ilkin xüsusiyyətlərindən biri olan ifadə azadlığı fundamental insan hüququdur və bu hüquq müxtəlif beynəlxaq sənədlərlə müdafiə tənzim olunur.

Bunlara Ümumdünya İnsan Hüquqları Bəyannaməsini, "Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktı" və İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanı göstərə bilərik.

Bu sənədlər onu ratifikasiya etmiş ölkələr üçün məcburi hüquqi qüvvəyə malikdir və razılığa gələn dövlətlərdən rəsmi şəkildə onun müddəalarına hörmətlə yanaşılması tələb edilir.

Azərbaycan Respublikası Konstitusiyanın 12-ci maddəsinin 2-ci hissəsinə əsasən, Konstitusiya ilə təminat altına alınan insan və vətəndaş hüquqları və azadlıqları AR-nın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir[1].

BMT tərəfindən qəbul edilən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 19-cu maddəsinə əsasən:

> *"Hər bir insanın əqidə azadlığı və onu sərbəst şəkildə ifadə etmək hüququ var; bu hüquqa əqidəsinə maneəsiz etiqad bəsləmək, dövlət sərhədlərindən asılı olmayaraq informasiya və ideyalar axtarmaq, almaq və yaymaq azadlığı daxildir".*

BMT-nin "Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktı"nın 19-cu maddəsi hər kəsin ifadə azadlığı və informasiya əldə etmək hüququnu təminat altına alır:

> *"Hər bir insan şəxsi fikri olmaq hüququna malikdir və hər bir insanın öz fikrini sərbəst ifadə etmək hüququ var. Bu hüquqa dövlət sərhədlərindən asılı olmayaraq hər cür informasiya və ideyaları axtarmaq, almaq, şifahi, yazılı, mətbuat, yaxud bədii ifadə formaları vasitəsilə, yaxud özü seçdiyi başqa üsullarla yaymaq azadlığı daxildir".*

AİHK-in 10-cu maddəsinə əsasən:

> *"Hər kəs öz fikrini ifadə etmək azadlığı hüququna malikdir. Bu hüquqa öz rəyində qalmaq azadlığı, dövlət hakimiyyəti orqanları tərəfindən hər hansı maneə olmadan və dövlət sərhədlərindən asılı olmayaraq, məlumat və ideyaları almaq və yaymaq azadlığı*

---

[1] https://e-qanun.az/framework/897, Azərbaycan Respublikasinin Konstitusiyasi

*daxildir. Bu maddə dövlətlərin radioyayım, televiziya və kinematoqrafiya müəssisələrinə lisenziya tələbi qoymasına mane olmur".*

Konvensiyanın 46.1-cı maddəsi AİHM qərarlarının üzv ölkələrdə icrasının məcburiliyini müəyyən edir. Həmin normaya əsasən:

*"Razılığa gələn Yüksək Tərəflər Məhkəmənin onların tərəf olduqları hər hansı iş üzrə qəti qərarını icra etməyi öhdələrinə götürürlər*".

BMT-nin "Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktı"nın 19-cu maddəsinin 3-cü bəndində bildirilir ki, məhdudiyyətləri doğuran əsaslar və şərtlər qanunla nəzərdə tutulmalı və aşağıdakı əsaslarda zəruri olamlıdır:

*a) başqalarının hüquqlarına və adına hörmət edilməsi üçün;*

*b) dövlət təhlükəsizliyinin, ictimai asayişin, əhalinin sağlamlığının, yaxud mənəviyyatının qorunması üçün;*

Paktda ifadə azadlığının məhdudulaşdırılmasının əsasları və şərtlərini belə sıralmaq olar:

• *məhdudiyyətlər hökmən qanunlarla olmalı və dəqiq göstərilməli;*

• *başqalarının hüquqlarına və adına hörmət edilməsi məqsədi ilə olmalıdır (şəxsin özəl həyatına müdaxilə önlənməlidir);*

• *dövlət təhlükəsizliyinin qorunması məqsədi daşımalı;*

• *ictimai asayişin mənafelərini qorumalı;*

• *əhalinin sağlamlığının qorunmasını hədəf seçməli;*

• *mənəviyyatın qorunması üçün nəzərdə tutulmalıdır.*

AİHK-in 10-cu maddəsinin 2-ci hissəsi ifadə azadlığı hüququn məhdudlaşdırılacağı halları və hansı əsaslarla məhdudlaşdırıla biləcəyini göstərir:

"Bu azadlıqların həyata keçirilməsi milli təhlükəsizlik, ərazi bütövlüyü və ya ictimai asayiş maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısını almaq üçün, sağlamlığın yaxud mənəviyyatın mühafizəsi üçün, digər şəxslərin nüfuzu və hüquqlarının müdafiəsi üçün gizli əldə edilmiş məlumatların açıqlanmasının qarşısını almaq üçün və ya ədalət mühakiməsinin nüfuz və qərəzsizliyini təmin etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan müəyyən formallıqlara, şərtlərə, məhdudiyyətlərə və ya sanksiyalara məruz qala bilər".

Konvensiyada ifadə azadlığının məhdudlaşdırılması üçün elan edilən bu əsasların aşağıdakı şərtlərə uyğun olması zəruridir:

- *Mülki və siyasi hüquqlara gətirilən məhdudiyyətlər qanunlarda olmalı və dəqiq ifadə edilməlidir;*
- *Məhdudiyyət Avropa İnsan Haqları Konvensiyasında göstərilən hüquqların birinə hökmən əsaslanmalıdır;*
- *Məhdudiyyət "demokratik cəmiyyətdə zərurilik" testinə uyğun olmalıdır;*
- *Hüquqların tətbiqində heç bir halda ayrı–seçkiliyə yol verilməməlidir.*

## Yerli qanunvericilik

Konstitusiyanın 47-ci maddəsində "Hər kəsin fikir və söz azadlığı"nın olduğu vurğulanır və *"Heç kəs öz fikir və əqidəsini açıqlamağa və ya fikir və əqidəsindən dönməyə məcbur edilə bilməz"* deyilir. 50-ci maddədə isə *"Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı"nın* olduğu elan edilir. Kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurasının qadağan olduğu, kütləvi informasiyanın azadlığına təminat verildiyi bildirilir.

Konstitusiyanın 54.1-ci maddəsinə əsasən Azərbaycan Respublikası vətəndaşlarının cəmiyyətin və dövlətin siyasi həyatında maneəsiz iştirak etmək hüququ var. 57.2-ci maddəyə əsasən isə "*Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarının və onların vəzifəli şəxslərinin, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, habelə ayrı-ayrı vətəndaşların fəaliyyətini və ya işini tənqid etmək hüququ vardır. Tənqidə görə təqib qadağandır. Təhqir və böhtan tənqid sayıla bilməz"*

Konstitusiyanın 71-ci maddəsi insan hüquq və azadlıqlarını təminat altına alaraq qeyd edir ki, insan və vətəndaş hüquqlarını və azadlıqlarını müdafiə etmək qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur: *"Hər kəsin hüquq və azadlıqları Konstitusiyada və qanunlarda müəyyən edilmiş əsaslarla, habelə digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşır".*

71-ci maddənin 3-cü bəndinə əsasən, *ölkədə müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə səfərbərlik elan edilərkən insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini nəzərə almaq şərti ilə qismən və müvəqqəti məhdudlaşdırıla bilər.*

Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları olsa da, Konstitusiyanın 24-cü maddəsinə əsasən, *"Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir".*

Həmçinin Konstitusiyanın 47-ci maddəsində qeyd olunan müddəalara əsasən irqi, milli, sosial ədavət və düşmənçilik oyadan təşviqata görə ifadə azadlığı məhdudlaşdırılır.

Məlumat azadlığına tətbiq edilən məhdudiyyətlər isə Konstitusiyanın 50-ci maddəsində birbaşa göstərilməsə də, *"hər kəsin hüquqlarını pozan və ya mənafelərinə xələl gətirən, kütləvi informasiya vasitələrində dərc edilən məlumatı təkzib etmək və ya ona cavab vermək hüququnun"* təminat altında olduğu bildirilir.

"Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Konstitusiya Qanununda ifadə və məlumat azadlığının məhdudlaşdırılması üçün göstərilən legitim əsaslara *dövlət təhlükəsizliyi mənafeləri; sağlamlığın və mənəviyyatın, digər şəxslərin hüquq və azadlıqlarının qorunması; cinayətin qarşısının alınması; iğtişaşların qarşısının alınması; ictimai təhlükəsizliyin qorunması; dövlətin ərazi* bütövlüyünün *mənafelərinin təmin edilməsi; digər şəxslərin nüfuzu və ya hüquqlarının müdafiəsi; məxfi qaydada əldə edilmiş məlumatın açıqlanmasının qarşısının alınması; məhkəmənin nüfuzunun və qərəzsizliyinin təmin edilməsi* və s. aiddir[2].

Konstitusiya Qanununda göstərilən əsaslardan biri olan *"digər şəxslərin nüfuzu və hüquqlarının qorunması"* məqsədi, əslində, Konstitusiyanın özündə bir neçə maddə ilə ifadə edilmişdir. Konstitusiyanın 46-cı maddəsi, şəxsi toxunulmazlıq hüququnu qoruyan 32-ci maddənin 3-cü bəndi (ş*əxsin öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir*) və Azərbaycan Respublikası Prezidentinin toxunulmazlığını nəzərdə tutan 106-cı maddə ifadə azadlığını məhdudlaşdırmağa əsas yaradan normalardır.

"İnformasiya əldə etmək haqqında[3]" Azərbaycan Respublikası Qanununun məqsədi *Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsi ilə təsbit olunmuş məlumat əldə etmək hüququnun sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə, açıq cəmiyyətin və demokratik hüquqi dövlətin prinsipləri əsasında təmin edilməsinin hüquqi əsaslarını müəyyənləşdirməkdən ibarətdir.*

Açıq informasiyalarla yanaşı, alınması məhdudlaşdırılan informasiyalar (konfidensial və gizli informasiyalar) da var. İkinciyə, məsələn, dövlət sirri, kommersiya sirləri, istintaq sirri, peşə sirləri (həkim, vəkil, notarius sirləri), xidməti istifadə üçün nəzərdə tutulan informasiyalar, şəxsi həyat sirləri, fərdi məlumatlar aid edilir.

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi[4] haqqında" Azərbaycan Respublikası Qanununun 3-1-ci fəsili "İnternet informasiya ehtiyatları" adlanır. Bu fəsildə internetdə, o cümlədən sosial şəbəkələrdə paylaşılan informasiyalara ölkə Konstitusiyası və

---

[2] https://e-qanun.az/framework/1881, "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu

[3] https://e-qanun.az/framework/11142

[4] https://e-qanun.az/framework/3525

ratifikasiya edilmiş beynəlxalq sənədlərdə nəzərdə tutulduğundan daha artıq məhdudiyyətlər qoyulmuşdur:

Qanunun 13-2.3-cü maddəsinə əsasən *internet informasiya ehtiyatının və onun domen adının sahibi və ya informasiya-telekommunikasiya şəbəkəsinin istifadəçisi həmin informasiya ehtiyatında (informasiya-telekommunikasiya şəbəkəsində) aşağıdakı yayılması qadağan edilən informasiyanın yerləşdirilməsinə yol verməməlidir:*

*terrorçuluğun təbliği və maliyyələşdirilməsi, terrorçuluğun həyata keçirilməsinin üsul və vasitələri, terrorçuluq məqsədi ilə təlim təşkil etmə və ya keçirmə barədə məlumatlar, habelə terrorçuluğa açıq çağırışlar;*

*zorakılığın və dini ekstremizmin təbliğinə dair məlumatlar, milli, irqi və ya dini nifrət və düşmənçiliyin salınmasına, dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə, ərazi bütövlüyünün parçalanmasına, hakimiyyətin zorla ələ keçirilməsinə və ya saxlanmasına, kütləvi iğtişaşların təşkil edilməsinə yönələn açıq çağırışlar;*

*dövlət sirri təşkil edən məlumatlar;*

*odlu silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların hazırlanma qaydası və ya üsulları barədə məlumatlar;*

*narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının hazırlanma və ya istifadə üsulları və qaydası, onların qanunsuz əldə edilməsi yerləri, habelə tərkibində narkotik maddələr olan bitkilərin kultivasiya yerləri və ya üsulları barədə məlumatlar;*

*pornoqrafiyaya, o cümlədən uşaq pornoqrafiyasına aid məlumatlar;*

*qumar oyunlarının təşkilinə və həmin oyunlarda iştiraka təhrik edən məlumatlar;*[1]

*intiharı problemlərin həlli üsulu qismində təbliğ edən, intihara bəraət qazandıran, onu əsaslandıran və ya törədilməsinə təhrik edən, intiharın törədilməsi üsullarını izah edən və ya qrup şəklində bir neçə şəxsin intihar etməsini təşkil etmək məqsədi ilə yayılan məlumatlar;*

*"Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq yaş kateqoriyasına uyğun işarələnməmiş kino, televiziya və videofilmlər, o cümlədən animasiya filmləri, kompüter və digər elektron oyunlar ("Universal" yaş kateqoriyasına aid olanlar istisna olmaqla);*

*təhqir və ya böhtan xarakteri daşıyan, habelə şəxsi həyatın toxunulmazlığını pozan məlumatlar;*

*əqli mülkiyyət hüquqlarını pozan məlumatlar;*

*insanların həyat və sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının törədilməsi, ictimai təhlükəsizliyin kütləvi şəkildə pozulması, həyat təminatı obyektlərinin, maliyyə, nəqliyyat, rabitə, sənaye, energetika və sosial infrastruktur obyektlərinin fəaliyyətinin pozulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhdidini törədən yalan məlumatlar;*

*Azərbaycan Respublikasının qanunları ilə yayılması qadağan edilən digər informasiya.*

## İnzibati məsuliyyət[5]

İnzibati Xətalar Məcəlləsinin (İXM) 388-ci maddəsinə əsasən, kütləvi informasiya azadlığından və jurnalist hüququndan sui-istifadə etməyə görə inzibati məsuliyyət müəyyən edilmişdir. Qanunda təsbit olunmuş sui-istifadə halları aşağıdakılardır:

- *açıqlanması qanunla qadağan edilən məlumatları açmaq;*
- *mətbu nəşrdə çap olunan materialların qanunvericiliyin tələblərinə uyğun hazırlanmasına nəzarət etməmək;*
- *qanunvericiliklə müəyyən edilmiş hallardan başqa informasiyanı onun mənbəyini göstərmədən yaymaq;*
- *istinad məlumatları göstərilməyən kütləvi informasiya vasitələri məhsullarını istehsal etmək və yaymaq, yaxud istinad məlumatlarını qəsdən yanlış göstərmək.*

Tətbiq edilən sanksiyaya gəldikdə isə, fiziki şəxslər iki yüz manatdan üç yüz manatadək məbləğdə, vəzifəli şəxslər beş yüz manatdan yeddi yüz manatadək məbləğdə, hüquqi şəxslər iki min manatdan üç min beş yüz manatadək məbləğdə cərimə edilir.

1 dekabr 2017-ci il tarixli[6] İXM-yə edilmiş dəyişikliyə əsasən, Məcəlləyə 388-1-ci maddə əlavə edilib. Məcəllənin 388-1-ci maddəsi qadağan olunmuş informasiyanın internetdə və sosial şəbəkələrdə yayıldığı, silinmədiyi və ona müraciətin məhdudlaşdırılmadığı təqdirdə inzibati məsuliyyət yaradır. Beləliklə, həmin informasiyanı yayan və götürən fiziki şəxslər beş yüz manatdan min manatadək, vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq edilir, hüquqi şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir. İnternet provayderləri və host provayderləri həmin informasiyaya müraciəti dərhal məhdudlaşdırmadıqda isə vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək, hüquqi şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.

---

[5] https://e-qanun.az/framework/46960, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi
[6] https://e-qanun.az/framework/37417

## Cinayət məsuliyyəti[7]

Cinayət qanunvericiliyinə görə, müxtəlif məzmunlu ifadələr ifadə azadlığı çətiri altında qorunmur və cinayət məsuliyyəti yaradır. Cinayət Məcəlləsinin (CM) 101-ci maddəsi *təcavüzkar müharibəyə açıq çağırışları tamamilə qadağan edir* və bu əməl üç ilədək müddətdə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Əgər çağırış vəzifəli şəxs tərəfindən kütləvi informasiya vasitələri ilə törədilərsə üç ilədək müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilir ya da fəaliyyətinə heç bir məhdudiyyət qoyulmadan iki ildən beş ilədək müddətə azadlıqdan məhrum edilir.

Məcəllənin 214-2-ci maddəsinə əsasən *terrorçuluğa açıq çağırışlar və bu tipli materialları yayma* isə beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

CM-in 281-ci maddəsi *dövlət əleyhinə yönələn açıq çağırışları qadağan edir* və beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Məcəllənin 323-cü maddəsinə əsasən isə *Azərbaycan Respublikası Prezidentinin şərəf və layaqətini kütləvi çıxışda, kütləvi nümayiş etdirilən əsərdə və ya kütləvi informasiya vasitəsində ləkələmə və ya alçaltma* iki ilədək müddətə islah işləri və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. *Prezidenti ağır və ya xüsusilə ağır cinayətdə ittiham etmək* üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

CM-in 220.2-ci maddəsinə əsasən *kütləvi iğtişaşlara, vətəndaşlata qarşı zorakılıq tətbiq etməyə dair çağırışlar, eləcə də, hakimiyyət nümayəndəsinin qanuni tələblərinə fəal şəkildə tabe olmamağa dair çağırışlar etmək* üç ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Məcəllənin 283.1-ci maddəsi nifrət nitqini tamamilə qadağan edir. Belə ki, *milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınmasına dair çağırışlar və onların kütləvi informasiya vasitələri ilə yayılması* halları baş verdikdə səkkiz min manatdan on iki min manatadək miqdarda cərimə olunur və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Cinayət Məcəlləsinin 147-ci maddəsi *böhtana görə* cinayət məsuliyyəti yaradır. Həmin maddəyə görə, *yalan olduğunu bilə-bilə hər hansı şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan məlumatları kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə, kütləvi informasiya vasitəsində və ya internet informasiya ehtiyatında yayılması* yüz manatdan beş yüz manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan dörd yüz səksən saatadək müddətə ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. *Şəxsi ağır cinayətdə ittiham etməklə böhtan atma isə* iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

---

[7] http://e-qanun.az/framework/37417 Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

CM-in 148-ci maddəsi t*əhqirə görə* cinayət məsuliyyət yaradır. Həmin maddəyə əsasən *kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında kütləvi nümayiş etdirilən əsərdə, kütləvi çıxışlarda, şəxsiyyətin şərəf və ləyaqətini nalayiq formada qəsdən alçaltmağa* görə üç yüz manatdan min manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan dörd yüz səksən saatadək müddətə ictimai işlər və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Cinayət Məcəlləsinə 2016-cı ilin noyabrında əlavə edilən 148-1-ci maddə *sosial şəbəkələrdə* ***saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtan atma və ya təhqir etm****əni kriminallaşdırır. Həmin* hallar min manatdan iki min manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz səksən saatadək müddətə ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Məcəllənin 163-cü maddəsi *jurnalistlərin qanuni peşə fəaliyyətinə mane olma* adlanır. 163.1-ci maddəyə əsasən *jurnalistlərin qanuni peşə fəaliyyətinə mane olma, yəni zor tətbiq etmə hədəsi ilə onları məlumat yaymağa və ya məlumat yaymaqdan imtinaya vadar etmə* beş yüz manatdan min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.

Eləcə də 163.2-ci maddəyə əsasən *eyni əməllər vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə* üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə islah işləri ilə və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

# 5. PRAKTİK VƏZİYYƏT

## Xəbərdarlıqlar

2021-ci il ərzində Azərbaycanda ifadə azadlığının vəziyyəti media monitorinqi aparılması metodu ilə təsvir edilmişdir. Monitorinq nəticəsində toplanmış xəbərdarlıq faktları aşağıdakılardır:

1. *Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyevə*[8] YouTube *kanallarındakı çıxışlarında "müxtəlif şəxslər barəsində böhtan və təhqir xarakterli ifadələr istifadə etməsi, vətəndaşlara qarşı zorakılıq etməyə yönələn çağırışlar səsləndirməsi, internet informasiya resurslarında qanunvericiliklə qadağan olunmuş məlumatlar yerləşdirməsi"* iddiası ilə xəbərdarlıq edilib;

2. *İctimai fəal Elmir Abbasova*[9] *"*Facebook" sosial şəbəkəsində yazdığı statusa görə xəbərdarlıq edilib;

3. *İbrahim Xudiyev*[10] yazdığı satirik şeirə görə polis bölməsinə çağırılıb və ona xəbərdarlıq edilib.

4. 2021-ci ilin dekabr ayının 16 və 17-i tarixlərində isə Abuşov Zamiq Hidayət oğlu, Mahmudov İlqar Mehman oğlu, İbrahimov Mehdi Nazim oğlu, Səfərsoy Rza Əli oğlu[11] Baş Prokurorluğa dəvət edilərək "hərəkətlərinin qanunsuz xarakteri diqqətlərinə çatdırılıb", "sosial media platformalarında konkret faktlara əsaslanmayan müxtəlif qərəzli məlumatların sensasiya naminə davamlı surətdə yayılmasına görə onlara analoji fəaliyyətlərinə görə gələcəkdə barələrində daha ciddi tədbirlər görüləcəyi izah edilməklə "Prokurorluq haqqında" Qanunun 22-ci maddəsinə əsasən prokuror təsir tədbiri aktı olan qanun pozuntusuna yol verməkdən çəkindirmək haqqında xəbərdarlıqlar elan edilib".

5. 20 dekabr 2021-ci il tarixdə Qusar rayonundakı məktəbin direktoru Hikmət Camirzə oğlu Ağacanova[12] *"internet informasiya ehtiyatında intiharla bağlı qadağan edilən məlumatları yayması ilə əlaqədar "Prokurorluq haqqında" Qanunun 22-ci maddəsinə əsasən qanun pozuntusuna yol verməkdən çəkindirmək haqqında xəbərdarlıq elan edilib.*

---

[8] https://genprosecutor.gov.az/az/post/4250 Baş Prokurorluq Əli Əliyevə xəbərdarlıq etdi

[9] http://gozetci.az/az/pozuntular/axcp-uzvund%c9%99n-t%c9%99zyiq-altinda-pesmanliq-etirafi-alibla/ AXCP üzvündən təzyiq altında "peşmanlıq etirafı" alıblar

[10] http://gozetci.az/az/pozuntular/satirik-sair-polis%c9%99-aparildigini-bildirib/ Satirik şair polisə aparıldığını bildirib

[11] https://report.az/hadise/bas-prokurorluq-bir-nece-jurnalisti-cerimeleyib/ Baş Prokurorluq: Bir neçə jurnalist cərimələnib

[12] https://www.azerbaycan24.com/intiharla-bagli-melumatlari-yayan-direktora-xeberdarliq-edildi/ İntiharla bağlı məlumatları yayan direktora xəbərdarlıq edildi

6. “Demokratiya 1918" Hərəkatının sədri Əhməd Məmmədlinin[13] verdiyi məlumata əsasən 2021-ci il martın 15 də polislər təşkilatın ofisinə yaxınlaşaraq onu müxtəlif cinayət əməlləri ilə təhdid edib və fəaliyyətlərini dayandırmağı tələb edib.

## İnzibati məsuliyyət

2021-ci il üzrə media monitorinqi nəticəsində məlum olub ki, 6 nəfərin ifadə azadlığı hüququna müdaxilə edilərək, inzibati məsuliyyətə cəlb oldunub. Bu faktlar aşağıdakılardır:

1. Müstəqil hərbi jurnalist Səxavət Məmmədov və jurnalist İbişbəyli Fikrət Fəraməz oğlu[14] inzibati Xətalar Məcəlləsinin 388-1.1.1-ci (*İnternet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi, habelə belə informasiyanın yerləşdirilməsinin qarşısının alınmaması*) maddəsi ilə 500 manat məbləğində inzibati qaydada cərimələniblər.

2. Bu dövr ərzində *“intiharı problemlərin həlli üsulu qismində təbliğ edən, onu əsaslandıran təhrik edən, törədilməsi üsullarını izah edən məlumatların qanunsuz olaraq yayımlanmasına”* görə “olke.az”, “manevr.az” saytları barəsində dekabr ayının 18-də İnzibati Xətalar Məcəlləsinin 388-1.1.1-ci maddəsi ilə 1500 manat məbləğində məhkəmə qaydasında cərimə tətbiq edilib.[15]

3. 21 aprel 2021-ci il tarixdə "ATV" televiziya kanalı “Bizimləsən” verilişində[16] qonağın səsləndirdiyi ifadələrə görə İnzibati Xətalar Məcəlləsinin 388-2.0.2-ci maddəsinə əsasən Milli Televiziya və Radio Şurası tərəfindən protokol tərtib edilərək 3000 manatdan - 4000 manatadək cərimələnməsi və yayımın dayandırılması məqsədi ilə məhkəməyə müraciət edilib.

4. 5 mart 2021-ci il tarixində tanınmış vəkil Şəhla Hümbətova[17] Bakı İnzibati Məhkəməsinin qərarı ilə Vəkillər Kollegiyasından 6 aydan çox üzvlük haqqını ödəmədiyinə görə çıxarılıb. O, 2018-ci ilin iyununda Gəncədə baş verən hadisələrlə bağlı həbs edilən bir neçə şəxsin vəkili olub və “Facebook”da tənqidi statusları ilə tanınır. Vəkil qərarın məhz onun ifadə azadlığını məhdudlaşdırmaq məqsədi ilə verildiyini bəyan edib.

---

[13] https://www.turan.az/ext/news/2022/3/free/Social/az/2714.htm/001 "Demokratiya - 1918" Hərəkatı polisin təzyiq göstərdiyini bildirir

[14] https://report.az/hadise/bas-prokurorluq-bir-nece-jurnalisti-cerimeleyib/ Baş Prokurorluq: Bir neçə jurnalist cərimələnib

[15] https://report.az/hadise/bas-prokurorluq-bir-nece-jurnalisti-cerimeleyib/ Baş Prokurorluq: Bir neçə jurnalist cərimələnib

[16] https://marja.az/70250/atv-cerimelendi-bizimlesen-verilisinin-yayimi-dayandirildi ATV cərimələndi, "Bizimləsən" verilişinin yayımı dayandırıldı

[17] https://d9mc3ts4czbpr.cloudfront.net/az/article/sehla-humbetova-vekiller-kollegiyasindan-cixarildi/ Şəhla Hümbətova Vəkillər Kollegiyasından çıxarıldı

5. 6 oktyabr 2021-ci il tarixində jurnalist və ictimai fəal Anar Abdulla[18] “Facebook” hesabından yazdığı fikirlərinə görə 15 sutka inzibati qaydada həbs olunub.

## Cinayət məsuliyyəti

Media monitorinqi aparılan dövr ərzində ifadə azadlığının cinayət cəzası ilə məhdudlaşdırılma faktlarına da rast gəlinib. Bunlar aşağıdakılardır:

1. 16 iyun 2021-ci ildə Cinayət Məcəlləsinin 147.1-ci maddəsi ilə dövlət məmuruna böhtan atma ittihamı ilə jurnalist Tural Səfərov haqqında 6 ay azadlıqdan məhrum etmə cəzası verilib.

2. 2021-ci ilin martın 2-də Şəki Apellyasiya Məhkəməsinin qərarı ilə bloqer Elçin Həsənzadə[19] və ictimai fəal İbrahim Türksoy[20] CM-in 147və 148-ci maddələri ilə təqsirli hesab edilərək 8 ay azadlıqdan məhrum ediliblər.

3. 2 ictimai fəal - İbrahim Türksoy hökumətə qarşı yazdığı tənqidi satirik şeirlərinə görə və Nicat İbrahim tənqidi statuslarına görə cinayət məsuliyyətinə cəlb olunub.

4. 2021-ci il 17 iyun tarixində sosial şəbəkələrdə “Tahir Zəngilanlı” adıyla tənqidi paylaşımlar edən fəal Tahir Heydərov 2 il 6 ay azadlıqdan məhrum edilib.[21]

5. İctimai fəal Nicat İbrahim “Facebook” hesabında 2020-ci ilin iyulun 20-də Prezident Administrasiyasının qarşısında etiraz aksiyası keçirib, prezident İlham Əliyevin istefasını tələb edəcəyi barədə elan yaydıqdan sonra 2021-ci ilin martın 5-də pandemiyanın bütün tələblərinə əməl etməsinə baxmayaraq CM-in 139-1.1 (***epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması***) maddəsi ilə 1 il 3 ay müddətinə azadlıqdan məhrum edilib.[22]

6. AXCP üzvü Niyaməddin Əhmədova Cinayət Məcəlləsinin 214-1 (terrorçuluğu maliyyələşdirmə), 28, 281.2 (dövlət əleyhinə yönələn açıq çağırışlar etməyə hazırlıq) və 233-1.2.1-ci (qanunla mülki dövriyyədə olmasına yol verilməyən əşyaları qanunsuz olaraq hazırlama, əldə etmə, saxlama, daşıma, gəzdirmə, başqasına vermə və ya satma) maddələri ilə ittiham elan olunmaqla, 8 oktyabr 2021-ci il tarixində barəsində həbs qətimkan tədbiri seçilib. Sonradan çıxarılan hökmə əsasən, N.Əhmədov 13 il azadlıqdan

---

[18] https://bizimxeber.az/az/post/anar-abdullaya-15-sutka-ceza-verildi-1791 Anar Abdullaya 15 sutka cəza verildi
[19] https://www.azadliq.org/a/31130833.html Bloqer və ictimai fəal həbs olunublar
[20] http://gozetci.az/az/pozuntular/satirik-sair-polis%c9%99-aparildigini-bildirib/ Satirik şair polisə aparıldığını bildirib
[21] http://gozetci.az/az/pozuntular/qarabag-m%c9%99hbusuna-2-il-6-ay-h%c9%99bs-c%c9%99zasi-verilib/ “Qarabağ məhbusu”na 2 il 6 ay həbs cəzası verilib
[22] https://www.azadliq.org/a/nicad-ibrahim/30960387.html 'Məndə koronavirus vardısa, polis mənimlə necə lahmacun yeyirdi?'

məhrum edilib *(Qeyd: AXCP rəsmiləri bu ittihamın absurd olduğunu bəyan edib, Əhmədovun həbsini partiyaya və partiyanın sədri Əli Kərimliyə qarşı repressiyaların davamı kimi qiymətləndirib*).[23]

[23] https://www.azadliq.org/amp/niyameddin-ehmedov-axcp/31472856.html Niyaməddin Əhmədova 15 il həbs istənildi

# 6. AİHM

**İllik hesabat**

2021-ci ildə Azərbaycandan AİHM-ə 425 şikayət göndərilib. Bu göstərici 2020-ci ildə göndərilən ərizələrin sayından (525) azdır. Yanvarın 25-də açıqlanan hesabata görə, AİHM-ə 2021-ci ildə ümumilikdə 44250 ərizə daxil olub. 2020-ci ildə bu say 41700 olub. İl ərzində dövlətlərlə 10630 ərizə kommunikasiya edilib. 36092 qərar və ya qərardad qəbul edilib, onların 32961-i qəbuledilməzliklə bağlı olub, yerdə qalan işlərdə ərizələr yekun qərar qəbul edilməsi üçün göndərilib.[24]

***Baxılmasını gözləyən şikayətlər***

2021-ci ilin sonunda AİHM-də ümumilikdə 70150 ərizə baxılmasını gözləyir. 2020-ci ildə baxılmasını gözləyən ərizələrin sayı 62000 olub. Gözləyən ərizələrin sayına görə, 17013 ərizə ilə Rusiya Federasiyası liderdir. İkinci Türkiyə (15251 ərizə), 3-cü Ukrayna (11372 ərizə), 4-cü Rumıniya (5690 ərizə), 5-ci İtaliya (3646 ərizə), 6-cı Polşa (2255) gəlir. Azərbaycan sıralamada baxılmasını gözləyən 2092 ərizə (AİHM-in ümumi iş yükünün 3 faizi) ilə 7-ci pillədədir.

2021-ci ildə AİHM Azərbaycanla bağlı ümumilikdə mahiyyəti üzrə 36 qərar elan edib. Azərbaycanla bağlı qərarların 35-də iddia edilən pozuntu tanınıb. Məhkəmə Azərbaycanla bağlı qərarlarında ***6 halda ifadə azadlığı,*** 6 halda yaşamaq, 7 halda işgəncəyə məruz qalmamaq, 1 halda məcburi əməyin yolverilməzliyi, 9 halda azadlıq və toxunulmazlıq, 7 halda ədalətli məhkəmə araşdırması, 3 halda şəxsi həyata hörmət, 4 halda birləşmə azadlığı, 1 halda effektiv müdafiə, 6 halda mülkiyyət hüququnun pozuntusuna qərar verib. 12 halda digər hüquqların pozuntusu qeydə alınıb.[25]

2021-ci ildə Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinin pozuntusu tanınan Azərbaycana qarşı qərarlar aşağıdakılardır:

1. *Əvəz Zeynalov Azərbaycana qarşı; Ərizə №.37816/12 25260/14; 22/04/2021*
2. *Həsənov Azərbaycana qarşı; Ərizə №.52584/09; 08/07/2021*
3. *Məmmədov və Abbasov Azərbaycana qarşı; Ərizə №.1172/12; 08/07/2021*
4. *Mahmudov və Ağazadə Azərbaycana qarşı (2); Ərizə №.28083/08; 22/07/2021*
5. *Həsənov və Məcidli Azərbaycana qarşı; Ərizə №.9626/14 9717/14; 07/10/2021*
6. ***Rövşən Hacıyev Azərbaycana qarşı; Ərizə №.19925/12 47532/13; 09/12/2021***

---

[24] https://aihmaz.org/aihm-2021-az%c9%99rbaycanla-bagli-36-q%c9%99rar-2-milyona-yaxin-t%c9%99zminat/
[25] https://aihmaz.org/aihm-2021-azərbaycanla-bagli-36-qərar-2-milyona-yaxin-təzminat/

**2021-ci ildə AİHM-in Azərbaycanla bağlı ifadə azadlığı hüququnun pozuntusu tanınan qərarlarının qısa xülasəsi**

1. ***Əvəz Zeynalov Azərbaycana qarşı, Ərizə №.37816/12 25260/14, 22/04/2021[26]; "Xural"** qəzetinin **baş redaktoru olan Əvəz Zeynalov (Əvəz Zeynallı) Azərbaycana qarşı işi*** jurnalistin deputat Gülər Əhmədovadan rüşvət tələb etməsi ittihamı əsasında saxlanılması və məhkum olunması ilə bağlıdır. AİHM Zeynalovun ofisində və evində axtarış aparılmasını və ona məxsus bəzi əşyaların götürülməsini Konvensiyanın 10-cu maddəsində nəzərdə tutulan qanuni məqsədə mütənasib saymayıb, 10-cu maddənin pozuntusunu tanıyıb. Məhkəmə axtarış və götürmənin qanunsuzluğa ilə bağlı şəxsi həyata hörmət, məhkəməyə qədər həbsin uyğunsuzluğu ilə bağlı azadlıq və toxunulmazlıq, məhkəmə qərarı olmadan rəsmilərin ərizəçini cinayətkar kimi qələmə verməsi ilə bağlı ədalətli məhkəmə araşdırması (təqsirsizlik prezumpsiyası) hüququnun pozulduğuna da qərar verb və 13000 avro mənəvi təzminat müəyyən edib.

2. ***Həsənov Azərbaycana qarşı, Ərizə №52584/09, 08/07/2021[27]; Əli Həsənov Azərbaycana qarşı*** işində ərizəçi "İdeal" qəzetində jurnalist və baş redaktor olub və müharibə iştirakçısı olan veteran haqda məqaləsinə görə, məhkum edilib. Yerli məhkəmələr onun məqalələrini başqa adlarla yazmasını, məqalələrin aşağılayıcı tonda olmasını müəyyən edb. Ərizəçi təhqirə görə 6 ay müddətinə azadlıqdan məhrum edilib. Bu işdə AİHM qarşısında ifadə azadlığı və ədalətli məhkəmə araşdırması hüququnun pozuntusu mübahisələndirilib. Məhkəmə ərizəçinin məhkumluğunun onun ifadə azadlığı hüququna qanuna uyğun müdaxilə olduğunu qeyd etsə də, müdaxilənin "demokratik cəmiyyətdə zəruriliyini" müəyyən edərkən, müdaxilənin testdən keçmədiyini vurğulayıb. Ərizəçi vəfat etdiyindən onu bacısı təmsil edib və AİHM ərizəçiyə 1700 avro mənəvi təzminat müəyyən edib.

3. ***Məmmədov və Abbasov Azərbaycana qarşı, Ərizə №1172/12, 08/07/2021[28]; Elnur Məmmədov və İrdak Abbasov Azərbaycana qarşı*** işində hər iki ərizəçi RATİ (Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutu) təşkilatında jurnalist olub. 2009-cu ildə "Milli Yol" qəzetinin baş redaktoru Şahin Ağabəyli[29] həbs edildikdən sonra qəzet redaksiyasında polis axtarışı zamanı ərizəçilərin çəkiliş aparmasına izn verilməyib[30] və onlara qarşı kobud rəftar ediib, çəkiliş apardıqları alətləri əllərindən alınıb və ərizəçilərdən biri saxlanıb, bir saat sonra isə buraxılıb. Məhkəmə qərarında vurğulayıb ki, jurnalistlərə qarşı bu cür rəftar onların informasiya əldə etmə və yayma hüququndan yararlanmalarını ciddi şəkildə məhdudlaşdırıb. Bu müdaxilə, hər hansı qanuni məqsəd

[26] https://hudoc.echr.coe.int/eng#{"itemid":["001-209346"]}
[27] https://hudoc.echr.coe.int/eng#{"itemid":["001-210839"]}
[28] https://hudoc.echr.coe.int/eng#{"itemid":["001-210849"]}
[29] Həbsdən çıxdıqdan sonra avtoqəzada həlak olub.
[30]https://www.irfs.org/az/news-feed/irfs-representatives-face-harassment-during-arrest-of-milli-yol-newspaper-editor-in-chief/

güdməyib, demokratik cəmiyyətdə zəruri olmayıb. AİHM ifadə azadlığı hüququnun, ərizəçiyə münasibətdə həm də azadlıq və toxunulmazlıq hüqunun pozuntusunun baş verdiyi qərarına gəlib.  Məhkəmə ümumilikdə 12500 avro mənəvi kompensasiya müəyyən edib.

4. ***Mahmudov və Ağazadə Azərbaycana qarşı (2), Ərizə №28083/08, 22/07/2021;***[31] Bu *qərar* Rövşən Mahmudov və Yaşar Ağazadənin Azərbaycana qarşı AİHM-də ikinci qərarıdır. Azərbaycana qarşı 10-cu maddənin pozuntusunun tanındığı ilk qərar da məhz bu jurnalistlər tərəfindən alınmışdır. Ərizəçilər tənqidi mövqeyi ilə tanınan "Müxalifət" qəzetinin baş redaktoru və əməkdaşı olub. Yerli məhkəmə orqanları ərizəçiləri Azərbaycanın siyasi xadimlərindən olan, deputat və keçmiş prezident Heydər Əliyevin qardaşı və indiki prezident İlham Əliyevin əmisi Cəlal Əliyevi ləkələdiyi iddia edilən məqaləyə görə cinayət məsuliyyətinə cəlb edib. Belə ki, C.Əliyevin şikayətindən sonra jurnalistlər Yasamal rayon Məhkəməsinin 16 may 2007-ci il tarixli hökmü ilə böhtana görə məhkum edilib və iki il altı ay müddətinə azadlqıdan məhrum edilib. Lakin, Ali Məhkəmənin həmin qərarından əvvəl 2007-ci ilin dekabrında jurnalistlər Azərbaycan prezidentinin əfv fərmanı ilə azadlığa buraxılıblar. Məhkəmə bu işdə də ərizəçilərin məhkumluğunun onların ifadə azadlığı hüququna qanuna uyğun müdaxilə olmasına baxmayaraq "demokratik cəmiyyətdə zəruri" bir addım olmadığını vurğulayıb və ərizəçilərə 3400 avro mənəvi təzminat ödənilməsinə qərar verib.

5. ***Həsənov və Məcidli Azərbaycana qarşı, Ərizə №9626/14 9717/14, 07/10/2021***[32]***; Ülvi Həsənov və Məcid Məcidli Azərbaycana qarşı*** işində ərizəçilər müxalifət yönlü NİDA Vətəndaş Hərəkatının üzvləri idi. 2013-cü ilin iyul ayında Bakıdakı "İçərişəhər" metro stansiyasında Azərbaycan Konstitusiyasından çıxarış olan "Hakimiyyətin mənbəyi xalqdır" sözləri yazılmış vərəqələr yayarkən, polislər tərəfindən saxlanılıb və onlar barəsində "inzibati xəta haqqında protokol" tərtib edilib. Daha sonra ərizəçilər hökumət əleyhinə vərəqələr yaymaqda, polis məmurunun qanuni əmrinə tabe olmamaqda günahlandırılıb, 15 sutka inzibati həbs ediliblər[33].  Məhkəmə bu işdə 10-cu maddənin və 6-cı maddənin pozuntusununu tanıyıb. AHİM, yayılan vərəqlərin məzmununun milli məhkəmələrdə araşdırılmadığını, hökumətin ərizəçiləri sadəcə vərəqə yaydıqlarına görə cəzalandırdığını bildirib və müdaxilənin 10-cu maddənin 2-ci hissəsinin tələbinə uyğun olmadığı qərarına gəlib. Strasburq məhkəməsi həmçinin, məhkəmə prosesinin ədalətli olmadığı qənaətinə gəlib, 6-cı maddənin pozuntusunu da tanıdı. Ərizəçilərə ümumilikdə 11700 avro mənəvi kompensasiya verilməsi qərarlaşdırılıb.

---

[31] https://hudoc.echr.coe.int/eng#{"itemid":["001-211100"]}
[32] https://hudoc.echr.coe.int/eng#{"itemid":["001-212032"]}
[33] https://qafqazinfo.az/news/detail/yoxa-cixan-gencler-tapildi-45829

6. ***Rövşən Hacıyev Azərbaycana qarşı, Ərizə №19925/12 47532/13, 09/12/2021;***[34] ***Rövşən Hajıyev Azərbaycana qarşı*** işində ərizəçi müxalif yönümlü "Azadlıq" qəzetinin redaktoru idi. O, Qəbələ rayonunda yerləşən radiolakasiya stansiyasının ətraf mühitə təsiri haqda əlaqəli qurumlardan (AR Prezidentinin sərəncamı ilə yaradılan xüsusi Komissiya - rəhbəri Səhiyyə Naziri idi) informasiya sorğusu ilə məlumat istəyib. Ancaq, informasiya sahibi olan inzibati qurumlar həmin məlumatları təqdim etməyib və yerli məhkəmələr buna haqq qazandırıb. AİHM movzu ilə bağlı araşdırma apardıqdan sonra qeyd etdi ki, ərizəçinin istədiyi hazır və əlçatan olan informasiya ictimai maraq doğuran məsələyə aid idi və informasiyanın əldə edilməsi bir jurnalist kimi ərizəçinin məlumat almaq və yaymaq hüququndan istifadə etməsində mühüm rol oynayırdı. İnformasiyaya əlçatımlığının təmin edilməməsi Konvensiyanın 10-cu maddəsinə - ifadə azadlığına ziddir. Məhkəmə 1500 avro mənəvi təzminat müəyyən edib.

[34] https://hudoc.echr.coe.int/eng#{"itemid":["001-213788"]}

# 7. AİHM-İN QƏRARLARININ İCRA VƏZİYYƏTİ

Hesabatın bu hissəsində 2021-ci il də daxil olmaqla ifadə azadlığı ilə bağlı əvvəlki illərdə çıxarılan qərarların icra vəziyyəti təsvir edilib.

Avropa Şurası Nazirlər Komitəsi (AŞ NK) ifadə azadlığı hüququnun pozuntusu ilə bağlı qərarların icrasına bir neçə qrup daxilində nəzarət edir. Bu qruplar aşağıdakılardır:

1. ***Diffamasiyaya görə; Mahmudov və Ağazadə Qrupu (1)*** *- Mahmudov və Ağazadə Azərbaycana qarşı, Fətullayev Azərbaycana qarşı, Tağıyev və Hüseynov Azərbaycana qarşı, Həsənov Azərbaycana qarşı;*

2. ***Peşə fəaliyyətini yerinə yetirən jurnalistin zorakılığa məruz qalmasına görə;*** **Muradova Qrupu (2)** *- Nəcəfli Azərbaycana qarşı, oxşar məzmunlu Hacı və başqaları Azərbaycana qarşı qərarının icrasına isə* ***Məmmədov (Cəlaloğlu) Qrupu (3)*** *şərçivəsində nəzarət edilir;*

3. ***Xədicə İsmayılova Azərbaycana qarşı (4)*** *və* ***Hacıbəyli və Əliyev Azərbaycana qarşı (5)*** *(tənqidi düşüncələrinə görə, vəkilliyə qəbulun rədd edilməsi) ilə bağlı olan qərarlara ayrılıqda;*

4. **Namazov Qrupu (6)** *- Bağırov Azərbaycana qarşı, Namazov Azərbaycana qarşı, Aslan İsmayılov Azərbaycan qarşı;*

5. ***Məmmədli Qrupunda (7)*** *- Qrafitiyə görə azadlıqdan məhrum etmənin pozuntu sayıldığı İbrahimov və Məmmədov Azərbaycana qarşı qərarının icra durumuna nəzarət edilir;*

6. ***Məmmədov (7308/12) Qrupunda (8)*** *- Ölkəyə dini ədəbiyyatın gətirilməsinə qadağanın pozuntu sayıldığı Yahova Şahidləri dini icması Azərbaycana qarşı qərarı.*

***QEYD:*** 2021-ci ildə çıxarılan 4 qərar- Əvəz Zeynalov işi, Məmmədov və Abbasov işi, Həsənov və Məcidli işi və, Rövşən Hacıyev işinə nəzarət hələlik, qruplar üzrə təsnif edilməyib.

*E.Fətullayev Azərbaycana qarşı işin*də, həbsdə olan jurnalist 2011-ci ilin mayın 26-sı prezidentin imzaladığı əfv fərmanı ilə azadlığa buraxılıb. Əfv Azərbaycanın Müstəqillik Günü ərəfəsində elan edilib. "Realnıy Azerbaydjan" və "Gündəlik Azərbaycan" qəzetlərinin redaktoru Fətullayev terrorizm, etnik zəmində düşmənçilik yaymaq və narkotik saxlamaq ittihamı ilə həbsə məhkum edilmişdi. 8 il yarımlıq həbs cəzasının jurnalist dörd ilindən çoxunu çəkib. AİHM-in qərarından sonra başqa bir cinayətə görə məhkum edilmiş ərizəçi prezidentin əfv fərmanından sonra

azadlığa buraxılıb. Ərizəçiyə AİHM-nin müəyyən etdiyi kompensasiya ödənilib. Bu işdə fərdi tədbirlərə nəzarət qapadılıb.

*Tağıyev və Hüseynovun işi*ndə AİHM-in qərarından sonra ərizəçilər cəzalarının qalan hissəsini çəkməkdən azad ediliblər. Ərizəçilərə kompensasiya da tam ödənilib.

*Həsənov Azərbaycana qarşı işi*ndə ərizəçi prezidentin fərmanı ilə əfv olunaraq cəzasının qalan hissəsini çəkməkdən azad edilib. Tağıyev və Hüseynov, eləcə də, Həsənov Azərbaycana qarşı işi üzrə bütün fərdi tədbirlər həyata keçirilməyib. Nazirlər Komitəsi 1419-cu toplantısında Azərbaycan Hökumətinə bununla bağlı xəbərdarlıq edib.[35]

Qeyd olunan qərarların icrası Azərbaycan Hökuməti qarşısında bu tələbləri qoyur:

1. *Diffamasiya qanunvericiliyinin dəyişdirilməsi ilə bağlı tədbirlər;*
2. *Qanunvericiliyin özbaşına tətbiq edilməsinin qarşısının alınmasına yönələn tədbirlər;*
3. *Baş Prokurorluq və hökumət rəsmiləri tərəfindən təqsirsizlik prezumpsiyası hüququnun pozulmasının qarşısının alınmasını hədəfləyən tədbirlərin həyata keçirilməsi.*

Nazirlər Komitəsinin 30 noyabr-2 dekabr 2021-ci il tarixində keçirilmiş 1419-cu toplantısında diffamasiya qanunvericiliyinin islahat edilməsinin yubanmasından narahatlıq ifadə edilib, hökumətdən böhtan və təhqirə görə cinayət cəzaları nəzərdə tutan mövcud qanunların tətbiqi ilə bağlı statistik bilgilər, qanunlara dəyişiklik edilməsi imkanları haqda məlumatlar istənilib.[36]

Qətnamədə Azərbaycanda hazırlanmaqda olan yeni "Media haqqında" Qanununun məzmunundan narahatlıq xüsusi vurğulanıb və hökumətin həmin qanun layihəsinin hazırlanmasında Avropa Şurası ilə əməkdaşlıq etməsi istənilib. Lakin qətnamənin qəbul olunmasından 7 gün sonra yeni "Media haqqında" Qanun layihəsinin mətni prezident tərəfindən Milli Məclisə təqdim edilib.[37]

AŞ NK qətnamədə həmçinin, jurnalistləri özbaşına cinayət təqiblərindən qoruya bilən aydın tədbirlərin görülməsi, yerli məhkəmə təcrübəsinin Avropa standartlarına uyğunlaşdırılması, media ilə bağlı cinayət təqibi təcrübəsini təkmilləşdirəcək məqsədyönlü addımların atılması kimi şərtləri bir daha yada salır.

---

[35] https://search.coe.int/cm/Pages/result_details.aspx?ObjectID=0900001680a488d7 1419th meeting, 30 November – 2 December 2021 (DH)

[36] https://search.coe.int/cm/Pages/result_details.aspx?ObjectID=0900001680a488d7
1419th meeting, 30 November – 2 December 2021 (DH)

[37] https://www.amerikaninsesi.org/a/parlamentdə-media-haqqında-qanun-layihəsi-müzakirə-ediləcək---media-ictimaiyyəti-sənədlə-tanış-olmadığınlı-bildirir-/6346446.html Parlamentdə "Media haqqında" qanun layihəsi müzakirə ediləcək - media ictimaiyyəti sənədlə tanış olmadığını bildirir

Nazirlər Komitəsinin 7-9 iyun 2021-ci il tarixdə keçirilmiş 1406-cı toplantısında qəbul edilmiş qətnaməsində də oxşar narahatlıqlar ifadə edilib:[38]

- *Cinayət Məcəlləsinin böhtan və təhqirə görə məsuliyyət müəyyən edən 147 və 148-ci maddələrinə dəyişiklik tələbi;*

- *Diffamasiyaya görə cinayət cəzalarının, cinayət qanununun digər müddəalarının özbaşına, qeyri-mütənasib tətbiq olunması təcrübəsinin aradan qaldırılması;*

- *Prokurorluq və icra hakimiyyəti orqanları tərəfindən təqsirsizlik prezumpsiyası hüququnun pozulması praktikasına dəyişikliklər edilməsi.*

Azərbaycan prezidentinin 2011-ci ildə imzaladığı "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda[39] "Diffamasiyaya görə cinayət məsuliyyətinin aradan qaldırılması məqsədilə qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması" tələbi nəzərdə tutulmuşdu. Proqrama uyğun olaraq hazırlanmış qanun layihəsi həm məzmunca AŞ ölçülərinə uyğun deyildi (Venesiya Komissiyasının rəyi belə idi), həm də yekunda ölkə parlamentinə çıxarılıb qəbul edilmədi. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu da öz növbəsində 2014-cü ildə "Qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Milli Məclisinə Cinayət Məcəlləsinə dəyişikliklərlə bağlı təkliflər verilməsi" haqqında qərar qəbul edib.[40] Həmin qərarda Milli Məclisə CM-in 147 və 148-ci maddələrinə ediləcək dəyişiklik layihəsi təqdim edilib. Ali Məhkəmənin Plenumu Avropa Məhkəməsinin mövqeyinə əsaslanaraq, sözügedən maddələrdə yalnız cərimə cəzasının nəzərdə tutulmasını məqsədəuyğun hesab etmişdi. Ancaq, həmin təşəbbüs də reallaşmayıb. Əksinə cinayət qanunvericiliyində nəzərdə tutulan cəzaların çərçivəsi daha da genişləndirilib – cərimə cəzaları artırılıb, həmin müddəalar həmçinin, internet üzərindən yayılan məzmunlara da aid edilib.[41]

**Muradova Qrupu; Məmmədov (Cəlaloğlu) Qrupu** - Bu Qruplar daxilində Konvensiyanın 10-cu maddəsinin pozuntusu ilə yanaşı, 2, 3, 5, 6, 11, 13 və 34-cü maddələrin pozuntusunun tanındığı ümumilikdə 20-dən artıq qərarın icrasına nəzarət edilir. Nəcəfli Azərbaycana qarşı, Hacı və başqaları Azərbaycana qarşı qərarlarının icrası da həmin işlərin sırasına daxildir. Məhkəmə bu işlərdə peşə fəaliyyətini yerinə yetirən jurnalistlərin polis əməkdaşlarının və digər

---

[38] https://rm.coe.int/0900001680a2b222 1406th meeting, 7-9 June 2021 (DH)

[39] https://e-qanun.az/framework/22821 Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

[40] http://www.supremecourt.gov.az/post/view/590 Xüsusi ittiham qaydasında şikayətlərə dair işlərə baxılması üzrə məhkəmə təcrübəsi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı

[41] http://www.supremecourt.gov.az/post/view/590 Xüsusi ittiham qaydasında şikayətlərə dair işlərə baxılması üzrə məhkəmə təcrübəsi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı

şəxsləri zorakılığına, hücumuna məruz qalmasını, olayların effektiv araşdırılmamasını ifadə azadlığı hüququnun pozuntusu saymışdı.

Bu qrup daxilindəki qərarlar üzrə təzminatların ödənilməsi təmin olunub. Digər fərdi tədbirlərə gəlincə, Nəcəfli qərarından sonra yeni açılmış hallar üzrə işə yenidən baxılmasına başlandığı bildirilir. Hökumətin təqdimatlarına görə, Azərbaycan Baş prokuroru 2 aprel 2013-cü il tarixdə Səbail rayon Prokurorluğunun ərizəçi jurnalistin işi üzrə 9 mart 2003-cü il tarixli qərarını ləğv edib, cinayət işinin yenidən araşdırılmasına qərar verib.[42] Ancaq ərizəçi, hər hansı yeni icraat haqqında məlumata malik olmadığını ifadə edib. Hökumət bu xüsusda əlavə məlumat təqdim etməyib. Hacı və başqlarının işində hər hansı məlumat təqdim olunmayıb.

Ümumi tədbirlərə gəlincə, hüquq-mühafizə orqanlarında pis rəftar təcrübəsi yayğın olaraq qalmaqda davam edir. Peşə fəaliyyətini yerinə yetirən jurnalistlərin qorunması durumu problemli olmaqda davam edir. Yerli qanunlar jurnalistin peşə faəliyyətinə mane olmağa görə, cinayət məsuliyyəti nəzərdə tutur.[43] Jurnalistlərin fəaliyyətinə müdaxilə edən fiziki şəxslərlə müqayisədə, rəsmilər daha ağır məsuliyyət daşıyırlar. Onlar belə hallara görə, 1 ilə qədər azadlıqdan məhrum edilə bilərlər. Ancaq, bu müddəa son 10 ildə tətbiq edilməyib. Jurnalistlərin zorakılığa məruz qaldıqları bir neçə halda cinayət işi açılıb, ancaq sonradan həmin işlərə xitam verilib.

**Namazov Qrupu**[44] - Bu Qrup daxilində 3 qərarın icrası nəzarət altındadır. Həyata keçirilməli olan ümumi tədbirlərə gəlincə, hökumət bu iş üzrə fəaliyyət planı təqdim etməyib. AŞ NK Qrup işini müzakirə etdiyi son toplantısında (sentyabr, 2021) qəbul olunan qətnamədə bundan narahatlıq ifadə edib: “Rəsmilər tərəfindən həyata keçirilən və ya həyata keçirilməsi nəzərdə tutulan fərdi və ümumi tədbirlər barədə məlumatların təqdim edilməsindəki gecikmələri narahatlıqla qeyd edirik”. AŞ NK həmin qətnaməsində hökuməti ərizəçilərə qarşı verilmiş qərarların və tətbiq edilmiş sanksiyaların qeyri-mütənasib olması səbəbindən, həmin xüsusatlar üzrə icraatı yeniləməyə çağırıb. Bu qrupun işi üzrə Aslan İsmayılova bağlı yerli məhkəmələrin qərarı ləğv olunub və onun Vəkillər kollegiyasında üzvlüyü bərpa edilib.

**Məmmədov (7308/12) Qrupu** (Yahova Şahidləri dini icması Azərbaycana qarşı) - Bu Qrup daxilində 3 qərarın icrası “genişləndirilmiş” nəzarət altındadır. Məhkəmə Yahova Şahidləri dini icması Azərbaycana qarşı işində ölkəyə dini ədəbiyyatın gətirilməsinə qadağa qoyulmasını 10-cu maddənin pozuntusu saymışdı. Qrupa daxil olan qərarların icrası ilə bağlı hökumətin məlumatlarında təzminatların ödənildiyi ifadə edilir. Ərizəçilərin təqdimatlarında isə təzminatların ödənilməsində problemlərin olduğu ifadə edilib. Hökumət qərarların icrası ilə bağlı fəaliyyət planı da təqdim etməyib.

---

[42] https://aihmaz.org/s%c9%99rh-n%c9%99c%c9%99fli-az%c9%99rbaycana-qarsi-2-oktyabr-2012/ ŞƏRH: NƏCƏFLİ AZƏRBAYCANA QARŞI – 2 oktyabr 2012

[43] http://www.supremecourt.gov.az/post/view/590 Xüsusi ittiham qaydasında şikayətlərə dair işlərə baxılması üzrə məhkəmə təcrübəsi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı

[44] https://aihmaz.org/5553-2/ No. 74354/13 Namazov işi Qrupu – 16 sentyabr 2021-ci il

**Məmmədli Qrupu** (İbrahimov və Məmmədov Azərbaycana qarşı) – Genişləndirilmiş nəzarət altında olan Qrup işi AŞ NK-nın 2021-ci ilin dekabr toplantısında müzakirə edilib. Komitə İbrahimov və Məmmədov işində təzminat tələbinin təmin edilməmiş olduğunu qeyd edib, hökuməti gecikdirmədən Avropa Məhkəməsinin təyin etdiyi bütün məbləğləri, o cümlədən hesablanmış gecikmə faizini tam ödəməyə çağırıb. Hökumət həmçinin, bu iş üzrə nəzərdə tutulan ümumi tədbirlər barədə məlumat verməyə dəvət olunub. İbrahimov və Məmmədov işində digər fərdi tədbirlər də (işə yenidən baxılması və s.) icra edilməyib.

**Hacıbəyli və Əliyev Azərbaycana qarşı**; **Xədicə İsmayılova Azərbaycana qarşı** - Ərizəçilərin Azərbaycanda vəkillik institutunun durumu ilə bağlı tənqidi düşüncələrinə görə vəkilliyiyə qəbul edilməmələrinin ifadə azadlığı hüququnun pozuntusu sayılan Hacıbəyli və Əliyev işinin icrasına nəzarət hələ təsnifləndirmə mərhələsindədir. Qərar çərçivəsində fərdi tədbirlərin bir qismi gecikmə ilə icra edilib. Təzminat məbləği ərizəçi Hacıbəyliyə hissə-hissə ödənilib. Gecikməyə görə faiz is ödənilməyib. Ərizəçi Əliyevə münasibətdə təzminat tam ödənilib.

Digər fərdi tədbirlərin icrası da problemlidir. Mülki prosessual qanunvericilik, işlərə daxili məhkəmələr tərəfindən yenidən baxılmasını nəzərdə tutur, ancaq bu, hələ ki, baş verməyib. Ərizəçilərin Vəkillər Kollegiyasına üzvlük məsələsi də açıq qalır, hökumət bu istiqamətdə hər hansı addım atmayıb.

Tanınmış araşdırmaçı jurnalist olan ərizəçinin gizli yolla çəkilmiş yataq görüntülərinin yayılmasının və onun barəsində aşağılayıcı məqalələrin dərc olunmasının şəxsi həyata hörmət və ifadə azadlığı hüquqlarının pozuntusu sayılan İsmayılova işində Məhkəmə jurnalistlərin ifadə azadlığı hüququnun qorunması üçün tədbirlər görülməli olmasını qeyd edir. İsmayılov işi, Avropa Şurası İnsan Haqları Komissarının hesabatlarının da işığında jurnalistlərə qarşı yol verilən pozuntulara münasibətdə cəzasızlıq mühitinin mövcudluğu problemini ortaya qoyur. Daxili qanunlar jurnalistlərə qarşı yol verilən qanunsuz əməllərə gərəkli cəzaları nəzərdə tutsa da, həmin müddəalar tətbiq edilmir. Bunu da qeyd edək ki, Xədicə İsmayılovaya münasibətdə kompensasiyalar tam şəkildə ödənilib.

AŞ NK qərarın icra durumunu 2020-ci ilin dekabrında müzakirə edib, qətnaməsində hökuməti təzminatın ödənilməsi, ərizəçiyə qarşı cinayətə yol verənlərin araşdırılması ilə bağlı görülən tədbirlər haqda bilgi təqdim etməyə çağırsa da, buna əməl edilmir. Ümumi tədbirlərə gəlincə, Komitə, dövlətlərin jurnalistləri və digər media təmsilçilərini təhdidlərdən, hücumlardan qoruyan əlverişli mühit yaratmaq öhdəliyini yada salır.

**AŞ NK 8-10 iyun 2022-ci ildə keçrilən 1436-cı toplantısında Xədicə İsmayılova Qrupu Azərbaycana qarşı üzrə qəbul etdiyi qətnamədə [45]qeyd edir ki,** hakimiyyət orqanlarını Məhkəmə tərəfindən müəyyən edilmiş nöqsanların aradan qaldırılması, xüsusilə, ərizəçiyə qarşı

[45] https://aihmaz.org/%c9%99riz%c9%99-%e2%84%9665286-13-x%c9%99dic%c9%99-ismayilova-qrupu-az%c9%99rbaycana-qarsi-8-10-iyun-2022/

törədilmiş cinayət əməlləri (təhdid məktubu, gizli çəkiliş və intim videoların yayılması) üzrə istintaqı dərhal yenidən başlatmağa, ərizəçinin jurnalist fəaliyyətindən qaynaqlanan və bütün şahidləri lazımi qaydada dindirməyə, işlə bağlı bütün ipuclarını izləməyə çağırır. Bundan əlavə hakimiyyət orqanlarını ərizəçinin yayılmış şəxsi məzmunlu məlumatlarının hamıya açıq resurslardan qaldırılıb-qaldırılmadığı barədə bilgi təqdim etməyə çağırır. Daha sonra AŞ NK hakimiyyət orqanlarını, jurnalistlərə qarşı törədilmiş cinayətlərlə onların peşə fəaliyyəti arasında mümkün əlaqənin olub-olmamasını araşdırmağın istintaq orqanlarının öhdəliyi olmasını təmin etmək üçün tədbirlər görməyə, eləcə də səlahiyyətliləri şəxsi həyata hörmət və reputasiya hüququ ilə ifadə azadlığı hüququ arasındakı tarazlığın təmin olunması ilə bağlı yerli məhkəmələrin təcrübəsin yaxşılaşdırmağa yönəlik tədbirlər görməyə dəvət edir və s.

Bununla yanaşı 2021-ci il ərzində Məmmədli qrupuna daxil olan digər ərizəçilər - Anar Məmmədli, İntiqam Əliyev, İbrahimov və Məmmədov, Xədicə İsmayılova, Arif və Leyla Yunuslarla bağlı Ali Məhkəmənin bəraət hökmü verməsinə dair Komitənin çağrışlarına məhəl qoyulmayıb.

AİHM qərarları üzrə AŞ NK-nin qruplaşdırdığı işlər və tövsiyələr əsasında məhkəmə-hüquq sistemi və milli qanunvericiliyin təkmilləşdirilməsi islahatları baş verməyib, zərərçəkmiş şəxslərə təzminatların ödənilməsində siyasi ayrı-seçkilik müşahidə edilib.

Avropa Şurası Parlament Assambleyasının 30 yanvar 2020-ci ildə qəbul etdiyi qətnamə və yerli hüquq müdafiə təşkilatlarının hesabatları əsasında siyasi məhbus qrupuna aid olan şəxslərdən 2021-ci ildə təxminən 42 nəfər azadlığa çıxsa da, hazırda ölkə həbsxanalarında 100 nəfərdən artıq siyasi məhbus var.

# 8. NƏTİCƏ

Araşdırma göstərir ki, Azərbaycanda ifadə azadlığının vəziyyətində əvvəlki illərə nisbətən heç bir irəliləyiş əldə olunmayıb. Avropa Şurası Nazirlər Komitəsinin qətnamələrinə baxmayaraq qanunvericilikdə heç bir pozitiv dəyişiklik qeydə alınmayıb, eləcə də praktiki səviyyədə ifadə azadlığına edilən müdaxilələrdə demokratik cəmiyyət üçün zərurilik prinsipi gözlənilmir. Rəsmi səlahiyyətli qurumlar ifadə azadlığına səlahiyyətlərindən sui-istifadə edərək legitim olmayan müdafilələr edir. Öz fikirlərini ifadə edən fəallar, sosial media istifadəçiləri, jurnalistlər, ictimai fiqurlar və o cümlədən partiya üzvləri hökumət tərəfindən təqib və müdaxilələrə məruz qalıb, media qurumları sıxışdırılıb. Jurnalistlərin, siyasi fəalların həbsinin bir çoxu onların paylaşdığı şərhlərdən, postlardan sonra baş verib. Sadəcə, ənənəvi mediada deyil, sosial şəbəkələrdə də ifadə azadlığı məhdudlaşdırılır.

Praktiki hissədə qeyd olunan bir neçə faktdan da göründüyü kimi, polislər açıq-aşkar təhdid etməkdən çəkinmir, öz status və mövqelərindən sui-istifadə edərək jurnalistlərə, fəallara və digər şəxslərə qarşı qanundan kənar müdaxilələr edir, bəzən də inzibati cəriməələmə səlahiyyətlərini şəxsin ifadə azadlığını məhdudlaşdırmaq üçün əsassız olaraq basqı vasitəsi kimi istifadə edirlər.

Prokurorluq orqanları da qanunvericiliyə daxil edilən və legitim hüquqi məqsəd daşımayan müddəaları çox geniş və demokratik cəmiyyətdə zəruri olmayan ölçüdə istifadə edir, məhkəmə araşdırması olmadan öz düşüncəsinə görə "qadağan edilmiş məlumatlar" müəyyən edərək, bu məlumatların yayılmasına görə jurnalistləri və sosial media istifadəçilərini "xəbərdar" edir, yaxud məhkəməyə çəkirlər.

Qanunvericilikdə diffamasiya sadəcə mülki məsuliyyət deyil, həm də cinayət məsuliyyəti yaradır və hətta tez-tez azadlıqdan məhrum etmə cəzası ilə nəticələir.

Azərbaycan məhkəmələri AİHK-in 10-cu maddəsinin pozuntusunun ilk tanınmasından keçən 15 ildə AİHM təcrübəsini öyrənməməkdə israr edir, verdikləri qərarda AHİM standartlarının tətbiqinə cəhd etmir, ifadə azadlığını diffamativ iddialarla cinayət məsuliyyətinə məruz qoyur və demokratik cəmiyyətdə zərurilik testini istifadə etmir.

Sosial mediada müxalif fikirlərinə görə siyasi və ictimai fəalların saxlanması, təzyiq və təhdidlərə məruz qalması ifadə azadlığı və birləşmək hüququnun kobud şəkildə pozulması ilə müşayiət olunur.

Avropa Şurası Nazirlər Komitəsinin mütəmadi tələblərinə, qətnamələrinə, çağırışlarına baxmayaraq, hökumət AİHM-in qəbul etdiyi qərarların tam və istisnasız icrasına əməl etmir, qərarların mənəvi kompensasiya hissəsini əsasən icra etsə də, qanunvericiliyin standartlara uyğunlaşdırılması, konkret tədbirlərin görülməsi, pozuntuların aradan qaldırılması, cinayətə yol verən şəxslərrin məsuliyyətə cəlb olunması və AHİM təcrübəsinin sonrakı məhkəmə çəkişmələrində bir qayda olaraq tətbiq edilməsinə əhəmiyyət vermir.

# 9. TÖVSİYƏLƏR

1. Cinayət Məcəlləsinin böhtan və təhqirə görə məsuliyyət nəzərdə tutan 147 və 148-ci maddələri ləğv edilməli, diffamasiya ilə bağlı yalnız mülki məsuliyyət nəzərdə tutulmalıdır;
2. Jurnalistlərin azadlıqdan məhrum edilməsi ilə nəticələnmiş cinayət işləri yenidən araşdırılmalı, əsassız həbs edilmiş jurnalistlərin azadlığa buraxılması təmin olunmalıdır;
3. Peşə fəaliyyətini yerinə yetirən jurnalistlərin qorunmasını, jurnalistlərin informasiya əldə etmə hüququnu təminat altına alan qanunların tətbiqi təmin olunmalıdır.
4. Azərbaycanın hüquq sistemiı ilə bağlı Avropa Şurası Nazirlər Komitəsinin tövsiyələri icra olunmalı, Avropa İnsan Haqları Məhkəməsinin qərarlarının icrası təmin olunmalı və müvafiq pozuntulara cavabdeh şəxslərin hüquq-mühafizə və məhkəmə sistemindən uzaqlaşdırılması təmin edilməlidir;
5. Hakimiyyət siyasi iradə nümayiş etdirərək, siyasi məhbusların azadlığa buraxılması ilə bağlı Avropa Şurası Parlament Assambleyasının qətnamələrini və yerli hüquq müdafiə təşkilatlarının hesabatlarını nəzərə almalıdır;
6. Vətəndaşların ifadə azadlığının müdafiəsi ilə bağlı AİHM-in müvafiq qərarlarından irəli gələn müddəalar icra edilməli, sosial media istifadəçilərinə qarşı təqiblər dayandırılmalıdır.

Sənəd Demokratik Təşəbbüslər İnstitutunun (IDI) apardığı araşdırmalar əsasında tərtib olunub. IDI araşdırmanın aparılmasına və sənədin ərsəyə gəlməsinə töhfə verən hər kəsə dərin təşəkkürünü bildirir.

Məlumatlardan istifadə edərkən IDI-yə istinad etmək zəruridir.

Əlaqə məlumatları:

Tel: +99450 435 95 42

Web: www.idi-aze.org

E- poçt: info@idi-aze.org

Facebook: www.facebook.com/DTI.IDI